

Sənədləri imzalama mərasimi

# Kuba və Meksikanı heyrətləndirən mədəniyyətimiz

**Səfər təəssüratları**

**Kuba və Meksikada düzənlənən Azərbaycan Mədəniyyəti Günlərinə 50 nəfərlik heyət - Dövlət Mahnı Teatrının, Dövlət Rəqs Ansamblının, "Şərq çırağı" Uşaq Yaradıcılıq Mərkəzinin üzvləri, caz ustaları, modelyer-rəssam, tərcüməçilər və KİV nümayəndələri qatılmışdı. Nümayəndə heyətinə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev rəhbərlik edirdi.**

Heydər Əliyev adına Beynəlxalq Hava Limanından səmaya qanadlanan təyyarəmiz Fransanın hava limanında yerə endi. Beş saat yarımlıq bir məsafəni qət edən sərnişinlər Avropanın bu məşhur hava limanından Kubaya uçmalı idilər. Amma gedəcəyimiz ünvanda baş verən fövqəladə hal - dəhşətli çovqun imkan vermirdi ki, Havana şəhəri təyyarələri qəbul etsin. Bu səbəbdən də uçuşda müəyyən fasilələr və qeyri-normal dəyişmələr yarandı. Nəticədə heyətin yarısı Parisdə qalmalı oldu. Diqqət çəkən bir məqam da var idi ki, azərbaycanlı sərnişinlərə hava limanının rəhbərliyi və yerli hökumət böyük diqqət və qayğı ilə yanaşırdı. Bizə şəhərə çıxış vizası açıldı, otellə təmin edildik, pulsuz yemək və içmək verildi. Parisdə bir udumluq hava alacağımız təqdirdə iki gün qonaq qaldıq.

Avropanın bu qədim şəhərinin özünəməxsus özəllikləri var. Sakinlər klassik üslubda geyinirlər. Hamının sifətində bir təbəssüm görünür...

Xüsusilə də tanımadıqları insanlara nəzakətlə yanaşırlar. Parisin gecələri nağıla bənzəyir. Bu şəhərin rəmzinə çevrilmiş Eyfel qülləsi gecələr daha füsunkar görünür. Sanki özü boyda bir tonqaldır. Paris hər birimizə köhnə tanış təsiri bağışladı. Bəzi küçələri, binaların memarlıq üslubu Bakının ötən əsrin əvvəllərində tikilmiş evlərini xatırlatdı. Şərq və Qərb memarlıq üslubunun sintezindən doğulmuş qədim binalarda qəribə cazibədarlıq var idi. Paris yaddaşımıza əfsanəvi şəhər kimi daxil oldu. Sanki bu şəhərdə insanlar bir-birlərini sözsüz anlayırlar.



Azərbaycanla tanışlıq

* * *

**Şimaldan Atlantik okeanı və Meksika körfəzi, cənubdan Karib dənizi ilə əhatə olunan Kuba inzibati cəhətdən 14 əyalətə bölünür. Tropik ölkədir. Ərazisini tropik və şam meşələri bürüyüb. Savannalar və həmişəyaşıl kolluqlar, palmalar diqqət çəkir. Dövlət dili ispan dilidir.**

Amerika qitəsində ilk sosialist dövlət burada qurulub. Memarlığı sürətlə inkişaf etmiş ölkələrdəndir. Ötən əsrin əvvəllərində Avropa və Amerika memarlığı üslubunda çoxlu tikililər inşa edilib. Xüsusilə də 1940-1950-ci illərdə çoxmərtəbəli evlər tikilib. Kubalılar özlərini "kubano" adlandırırlar. 11,4 milyon əhalisi var. Əhalinin 65 faizini ispanlar təşkil edir. Özləri "Havana" adını "Habana" yazır, "Labana" çağırırlar.



Çıxış edir Təranə Muradova

Havana bizi çovqun və soyuq hava ilə qarşıladı. Otelimiz Atlantik okeanın sahilində yerləşdiyinə görə gecə səhərəcən bu nəhəng ümmandan qopan qorxulu gurultular bizi vahiməyə salırdı. İki gündən sonra isə bütün təlatümlər yatdı. İnanılmaz bir sakitlik yarandı. Şəhər köhnə və nimdaş vəziyyətdədir. Son illərdə heç bir binada, abidə kompleksində, park və xiyabanlarda bərpa işləri aparılmayıb. Halbuki binalara nəzər yetirdikdə onların orijinal memarlıq üslubunda tikildiyi diqqət çəkir. Əslində Kubada biz vaxtilə yaşadığımız sovet həyat tərzinin izlərini gördük. Boynu qırmızı qalstuklu uşaqlar - yəni pionerlər, komsomolçular diqqətimizi çəkdi. İstər Havanada, istərsə də digər şəhərlərdə Leninin heykəlləri hələ də qalır. Havana sanki qocalıb əldən düşmüş, çox yorulmuş, köməyə ehtiyacı olan ahıla bənzəyir. Köhnə, nimdaş görünməsinə baxmayaraq, hər yerdə bir təmizlik, səliqə-sahman var.

Havanadakı "Dostluq evi"ndə hökumətlərarası komissiyanın üçüncü iclası keçirildi və Əməkdaşlıq Protokolu imzalandı. İmzalanmanı Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və Kuba xarici ticarət investisiyalar nazirinin birinci müavini Orlando Enraldes Giyen həyata keçirdilər.

Mərasimdə Azərbaycan Respublikası xarici işlər, iqtisadi inkişaf, maliyyə, sənaye, təhsil, səhiyyə və idman nazirliklərinin nümayəndələri, Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsi, eyni zamanda ölkəmizin Kuba Respubli-



Foto-sərginin açılışı

kasındakı fövqəladə və səlahiyyətli səfiri Aqşin Mehdiyev və müxtəlif ölkələrin Kubada yerləşən diplomatik korpusunun əməkdaşları, səfirlər iştirak edirdilər.

**Havana Milli Kitabxanasında Azərbaycan fotoqraflarının sərgisi açıldı. Burada Fərid Xayrullinin və Emil Xəlilovun fotoları, eləcə də milli geyimlərimiz nümayiş olundu. "Azərbaycan" kitabının təqdimatı da keçirildi. Mərasimdə qonaqlara Azərbaycan nemətləri - mətbəximizin müxtəlif töhfələri: paxlava, şəkərbura, qoğal, eləcə də quru meyvələr təqdim edildi. Havananın bu məşhur və böyük kitabxanasında belə bir tədbirin düzənlənməsinin xüsusi əhəmiyyəti var idi.**

Bir həftə davam edən bu sərgiyə gündə minlərlə tamaşaçı baxırdı. Havana Musiqi İnstitutunda isə Azərbaycan caz ustaları öz məharətlərini göstərdilər. Açıq səma altındakı səhnədə təşkil olunmuş konsertdə yüzlərlə havanalı Azərbaycanın gənc caz ustalarına böyük həvəslə qulaq asdılar.

Cazın inkişaf etdiyi bir ölkədə cazla ürəkləri fəth etmək o qədər asan olmadığı bir məqamda Azərbaycan cazmenləri həqiqətən də qeyri-adi bir coşqunluqla bu qələbəyə nail oldular.

Havanada Azərbaycan kino həftəsi "Qırxıncı qapı" filmi ilə start götürdü. Filmdən öncə Mədəniyyət və Turizm Nazirliyinin mətbuat katibi Zöhrə Əliyeva çıxış edərək tamaşaçılara Azərbaycan milli kinosunun tarixindən və bugünündən söz açdı. Azərbaycan kinemotoqrafçılarının çəkdiyi filmlərə böyük maraq göstərən kubalılar bildirdilər ki, onlar hələ ötən əsrin ortalarından başlayaraq Azərbaycan filmlərinə rəğbətlə tamaşa ediblər.

Kubanın paytaxtındakı Milli Teatrda isə Azərbaycan Mədəniyyət günlərinin təntənəli açılışı oldu. Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev çıxışında dedi: *"Dövlət müstəqilliyimizi qazandıqdan sonra ilk dəfədir ki, Kubada belə bir möhtəşəm tədbir keçirilir. İstər imzaladığımız protokol, istərsə də bu tədbir gələcəkdəki çoxşaxəli əməkdaşlığın bünövrəsini qoydu. Kubalılarla azərbaycanlılar arasında həmişə səmimi münasibətlər mövcud olub. Yəqin ki, bir vaxt Bakıda ali təhsil alan kubalılar bizi hələ də unutmayıblar.*

*Çünki onların həyatında, cəmiyyətdə tutduqları mövqedə Bakı mühitinin, eləcə də Azərbaycan ali məktəblərinin böyük rolu olub. İnanıram ki, bizim bütün sahələrdə əlaqələrimiz davam edəcək. Yaxın gələcəkdə Bakıda Kubanın mədəniyyət günləri keçiriləcək. Mədəniyyətlərin qovuşması, insanların mənən bir-birinə yaxınlaşması, təması sülhün əbədiliyinə, əməkdaşlığın, qardaşlığın, dostluğun inkişaf etməsinə səbəb olur.*



Bakıda təhsil almış kubalılar

*Bu gün Azərbaycanın mədəniyyət xadimləri sizin qarşınızda maraqlı proqramla çıxış edəcəklər. Məqsədimiz budur ki, bir-birimizin mədəniyyəti ilə yaxından tanış olaq. Tarixən həmişə ölkələrin yaxınlaşmasına əsas vasitə mədəniyyət olub. İnanıram ki, Kubada keçirilən Azərbaycan mədəniyyətinin təntənəsi uzun müddət sizin yaddaşınızdan silinməyəcək".*

Üzeyir Hacıbəylinin musiqisi ilə start götürən mədəniyyət günlərinin ilk nəğməsi "Vətənimdir" mahnısı oldu. Bayatı-Şiraz üstündə əməkdar artist Təyyar Bayramovun ifası salona bir həzin ovqat gətirdi. Vəfa Orucovanın oxuduğu "Sizə salam gətirmişəm" mahnısı isə eldən-elə qanadlanan məhəbbətin, xoş münasibətin ifadəsinə çevrildi. Bu konsert proqramında diqqətimizi çəkən məqamlardan biri də bu oldu ki, kubalılar Azərbaycan incəsənət ustalarını ayaq üstə alqışlayırdılar.

Xüsusilə də Camaləddin Dadaşovun qoşanağaradakı qeyri-adi ifası kubalıları valeh etdi. Onlar dəfələrlə azərbaycanlı sənətkarı səhnəyə çağırır, onun çalğısına qulaq asmaqdan doymurdular. İlham Nəcəfovun müxtəlif nəfəs alətlərindəki ifası da kubalıların sürəkli alqışına səbəb oldu. Azərbaycan rəqqasələrinin bir-birindən maraqlı və oynaq rəqsləri tamaşaçıları riqqətə gətirirdi.

Konsert sona çatsa da kubalılar azərbaycanlılardan ayrılmaq istəmirdilər. Onlar bizə yaxınlaşaraq doğma dilimizdə xoş sözlər deyirdilər: "Salam", "Xoş gəlmisiniz", "Necəsiniz", "Biz Bakını tanıyırıq". Vaxtilə Bakıda təhsil almış kubalılar bizi məhəbbətlə qarşılayır və soruşurdular: "Universitet durumu?" (BDU-nu soruşurdular - **F.X.**). Ölkəmizin müxtəlif ali məktəblərində təhsil almış kubalılar bizə xiffətlə yaxınlaşırdılar. Onlar bildirirdilər ki, Bakı ikinci vətənimizdir. Hətta elə ailələr var idi ki, onların övladları da vaxtilə Bakıda doğulub. Bizdən ayrılmaq istəməyən "bu bakılı kubalılar" doğma şəhərimiz haqqında xoş sözlər deyir, azərbaycanlı müəllimlərin və tələbə yoldaşlarının adlarını çəkir, onlara salam göndərirdilər. Orta yaşlı kubalılar rus dilində təmiz danışırlar.

**Sonrakı günlərdə Kubanın Matanzas rayonunda mədəniyyət günləri keçirildi. Varadero isə Kubanın kurort şəhəridir. Olduqca yaşıl təbiətə və qeyri-adi gözəlliyə malikdir. İldə Kubaya 3 milyon turist gəlir. Onun 80 faizi məhz Varaderoya üz tutur. Bu şəhərin musiqi məktəbində keçirilən görüşlər çox unudulmaz oldu.**



Kubadakı kapitoli

Əvvəlcə yerli məktəblilər öz məharətlərini göstərdilər. Onlar müxtəlif mahnılar oxuyur, rəqslər edir, dostluğa, qardaşlığa aid şeirlər söyləyirdilər. Sonra isə Azərbaycan musiqiçilərinin çıxışları başladı. Bir fərəhli faktı deyək ki, xalq artisti Təranə Muradova Varaderonun bu məşhur məktəbində əslində ustad dərsləri keçdi. O, azərbaycanlı incəsənət nümayəndələri ilə kubalıları bir araya gətirərək "Yallı"da birləşdirdi.

Doğrudan da əsl musiqinin bir ümumi dili var. Müxtəlif dinli, irqli, qitəli insanlar bir-birlərinin əllərindən tutaraq dövrə vururdular, yallı gedirdilər. Ortada isə Təranə Muradova coşqunluqla rəqslərin təmayülünü müəyyən edirdi. Məktəbin direktoru məhəbbətlə bildirdi ki, kaş Təranə xanım bir müddət burada qalıb bizim müəllimlərə dərs keçəydi.

**Azərbaycan haqqında kino çəkmiş kubalı jurnalist Dezi Qomezin bizə göstərdiyi iltifat və məhəbbət də yaddaşımızda şirin xatirəyə döndü. Xüsusilə də mətbuat işçilərinə bələdçilik edən zənci Dieqonun diqqəti, həssaslığı xəyalımızdan silinmir. Kubanın tarixini çox gözəl bilən, bugünkü durumunu bizə təfsilatı ilə anladan bu yaşlı zəncinin rus dilində səlis danışması, ötənləri xiffətlə xatırlaması bizə bir çox məsələləri dərindən anlatdı. Kuba hələ də sosialist ölkəsidir. Kubalılar bundan məmnunluq duyur, öz vətənlərini dərindən sevir, onun qanunlarına, tələblərinə məhəbbətlə yanaşırlar.**

Amerika ədəbiyyatının görkəmli nümayəndələrindən biri, Azərbaycan oxucusuna "Əlvida silah", "Qoca və dəniz" əsərləri ilə tanış olan Ernest Heminquye vaxtilə bir müddət Kubada oteldə yaşayıb. Kubalılar həmin otel odasını muzey kimi mühafizə edərək qoruyurlar. Burada məşhur yazıçının kitabları, yazı makinası, bir sıra şəxsi əşyaları var. Kubalılar fəxr edirlər ki, dünya ədəbiyyatının bu məşhur siması bir vaxt Havanada yaşayıb.

Vaxtı ilə kitablarını maraqla oxuduğumuz böyük yazıçı Ernest Heminquyenin yaşadığı ünvanda olmaq, ona məxsus eksponatları görmək bizə də qeyri-adi təsir bağışladı.

Kuba dünyada həm də öz siqarası ilə məşhurdur. Nümayəndə heyətimiz siqara hazırlayan fabrikdə də oldu. Bizə xoş gələn məqamlardan biri də köhnə Havanada müsəlman məbədinin - məscidin olması idi. Doğrudur burada yalnız bir ərəb şeyxindən başqa kimsəni görmədik.

Amma adalar kralı Kubada belə bir məbədin olması dini tolerantlıqdan xəbər verirdi. Şəhərin müxtəlif yerlərini, parklarını, eləcə də köhnə Havananı seyr etdikcə qədim binalara heyrətlə baxırdıq. Eyni vaxtda Amerika qitəsində iki kapitoli tikilib. Bunlara ekiz binalar da demək olar. Biri Vaşinqtondadır, o birisi də Havanada. ABŞ-dakı ağ rəngli kapitoli bu gün də dünyaya meydan oxuyur. Havanadakı isə öz nimdaş paltarına bürünərək nə vaxtsa insafa gələcək bərpaçıları gözləyir. Ümumiyyətlə, Havanada qədim, əzəmətli, möhtəşəm tarixi binalar çoxdur. Sadəcə olaraq libasları çox köhnədir. Şəhərin simasındakı bu pərişanlıq təəssüf doğursa da, kubalılar öz vətənlərini çox sevirlər.

Kuba bizə sovet dönəmindəki Sumqayıt şəhərini xatırlatdı. Azərbaycan musiqiçilərinin, sənətçilərinin istedadı sayəsində okeanın o tayında - adalar kralında möhtəşəm bir təntənənin şahidi olduq. Azərbaycan mədəniyyəti bu uzaq ölkənin sənətsevərləri tərəfindən böyük məhəbbətlə qarşılandı və qiymətləndirildi. Biz kubalılardan köhnə dostlar kimi ayrıldıq. Sanki uzun illər idi bir-birimizi tanıyırdıq. Kubalılar coşqunluqla bizim rəqqaslarımıza qoşulur, mahnılarımızı ifa edir, məhəbbətlə "Azərbaycan" deyir, bayrağımızı hörmətlə sinələrinə sıxır, əziz yadigar kimi özlərilə aparırdılar.



Gül satan qızlar

*Davamı 76-cı səhifədə*



"Şərq çırağı" uşaq yaradıcılıq mərkəzinin üzvləri

Kubadan sonra növbəti ünvan Meksika Birləşmiş Ştatları oldu. Şimali Amerikanın cənub-qərb hissəsində yerləşən bu qeyri-adi yaşıl libaslı ölkə ABŞ-la, Beliz və Karib dənizi, Meksika körfəzi, Sakit və Atlantik okeanları ilə əhatə olunub. Meksika Birləşmiş Ştatları 31 ştat və federal dairədən ibarət federasiyadır. Paytaxtı Mexiko şəhəri dünyanın ən sıx əhalisi olan şəhərlərdən biridir. Meksika ərazisinə görə Amerikanın 5-ci, dünyanın 14-cü ölkəsidir, 110 milyon əhalisi var. Paytaxt Mexikonun əhalisi isə 30 milyondan yuxarıdır.

# Kuba və Meksikanı heyrətləndirən mədəniyyətimiz

Əvvəli 2-6-cı səhifələrdə

**Piramida adı çəkiləndə ilkin yada Misir ehramları düşür. Halbuki Meksikada da hələ çox qədim zamanlardan xristianlığın ilk illərində inşa edilmiş piramidalar, şəkilli məbədlər, heykəllər var. Teotiyakandakı "Ay" və "Günəş" ehramları, onların ətəyindəki məbədlər ansamblı, müxtəlif evlərin nişanələri təqribən VI əsrə aid edilir. Bu iki nəhəng piramida çox uzaqdan da diqqəti cəlb edir. Hər gün buraya dünyanın müxtəlif yerlərindən minlərlə insan ziyarətə gəlir. Dinindən, dilindən və irqindən asılı olmayaraq, buraya gələn zəvvarlar belə hesab edirlər ki, mütləq "Günəş" piramidasının zirvəsinə qalxmaq lazımdır.**

Etiqada görə, bu piramidaya qalxan insanlar Günəşdən enerji alırlar. 23 km$^2$ ərazini tutan bu sahədə, deyilənə görə, varlı və hakim təbəqəyə məxsus insanların yaşayış evləri inşa olunub. İndi onu böyük məharətlə, məhəbbətlə qoruyan meksikalılar bu qədim abidəni gələcək nəsillərə çatdırmaq üçün hər bir daşın, nişanənin üzərində yarpaq kimi əsirlər.

Faktlar göstərir ki, hələ XVI əsrdən başlayaraq Meksikada memarlıq və şəhərsalma sürətlə inkişaf etmişdir. Bizi isə ən çox heyrətə gətirən dağlarla əhatə olunmuş Mexiko şəhərinin meşə içərisində yerləşməsidir. Müxtəlif hündür ağaclar, hətta bizim yaxşı tanıdığımız çinar, vələs, şam, küknar, palıd, söyüd, şaftalı ağacları bu yerlərin bəzəyidir. Təbii ki, Meksikada palmalar daha çoxdur.

Həm də bu palmaların saysız-hesabsız növləri var. Xüsusilə də Meksikada gül kolları yox, gül ağacları gördük. Bəzilərinin adını bilməsək də, bizim tanıdığımız çin qızılgülləri bu ölkədə nəhəng ağaclardır. 7-8 il ərzində dibçəkdə bir əl boyda böyütdüyümüz kaktuslar burada nəhəng ağaclara bənzəyir. Bizim "mal dili" adlandırdığımız kaktusun Meksikada böyük plantasiyaları var.



**KİV nümayəndələri ilə**

Öyrəndik ki, onun meyvəsinin şəfaverci xüsusiyyəti olduğundan meksikalılar bu bitkini geniş şəkildə əkib-becərirlər. Bu ölkədə ən ucuz satılan isə güllərdir. Bizim pulla 5 manata nəhəng bir buket bağlatmaq olar. Mexiko şəhəri başdan-ayağa müxtəlif abidələrlə doludur. Xüsusilə də müstəqilliklərinin 200 illiyi şərəfinə salınmış Azadlıq meydanındakı abidə kompleksi olduqca heyrətedicidir.

Hansı tərəfdən baxsan, abidə görürsən. Həftənin şənbə və bazar günlərində bu meydanda maşınların hərəkəti dayandırılır, velosiped yarışı başlanır. Paytaxtda 750 muzey var. Beş gün pullu işləyir. Şənbə və bazar günləri isə pulsuzdur (kasıbların gəlməsi üçündür). Şəhərdə bir neçə yerdə nəhəng meydan var. İstirahət günlərində həmin meydanlarda Meksikanın tanınmış müğənniləri, musiqiçiləri konsert proqramı ilə çıxış edirlər ki, teatrlara getməyə maddi imkanı olmayanlar buraya gəlib dincələ bilsinlər. İşlərin bu cür qurulmasında bir tərəfdən sakinlərin maddi durumuna diqqət göstərilirsə, digər halda əhalinin mədəniyyətdən uzaq düşməsinin qarşısı alınır.

Mexikonun mərkəzində yerləşən Kafedral kilsə ən qədim və möhtəşəm məbəd sayılır. 240 ilə tikilən bu abidə həqiqətən də dünyanın ən böyük kilsələrindən biridir. Binanın zahiri də, içi də qeyri-adidir. Nəhəng sənət əsəridir. Baxmaqdan doymursan. Həftənin I-V günləri ancaq meksikalılar, qalan günlərində isə xarici ölkə vətəndaşları buraya ibadətə gəlir. Meksikalılar şən, yumoru sevən, xüsusilə də, musiqi ilə nəfəs alan mehriban və nikbin insanlardır.

Meksika və onun tarixi abidələri haqqında məlumat verən kilsə bələdçisi sonda bizdən zəhmərhaqqı istəyəndə təəccüblənsək də, "mən də bununla dolanıram" deməsi yadımıza Kubadakı gülsatan qızları saldı. Al-əlvan paltarlı qızlar əllərində gül səbəti tutaraq şəhəri dolaşırlar. Libaslarının rənginə görə güllərdən seçilməyən bu qızların şəklini çəkmişdik. Onlar da fotoya görə bizdən pul aldılar. Bəli, təəccübə dəyməz! Bura Amerikadır.

* * *

Azərbaycan Mədəniyyəti Günlərinin açılışı Mexiko şəhərinin məşhur Milli Antropologiya Muzeyinin konsert salonunda oldu. Latın Amerikası bölgəsində bu bizim ilk tədbirimiz idi. Azərbaycan incəsənət ustalarının, o cümlədən Dövlət Rəqs Ansamblının, gənc muğam ifaçılarının, eləcə də "Şərq çırağı" uşaq qrupunun ifalarından ibarət təntənəli proqram meksikalılar tərəfindən alqışlarla qarşılanırdı. Onlar bizim musiqimizə, mahnılarımıza maraqla qulaq asır, bəzən özləri də oxumağa, bizim kimi rəqs etməyə cəhd göstərirdilər. Kubalılardan geri qalmayan meksikalılar məhəbbətlə səs-səsə verərək "bravo" sədalarını sənətçilərimizin ünvanına göndərirdilər. Kubada olduğu kimi, Meksikada da zərb alətləri ifaçısı Cəmaləddin Dadaşova xüsusi diqqətlə yanaşırdılar.

Muzeyin mərkəzi salonunda Azərbaycan fotoqraflarının əsərlərindən ibarət sərgi təşkil edilmişdi. Antara Ticarət Mərkəzinin konsert salonunda isə Azərbaycan caz ustalarının konserti oldu. Gecədə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Azərbaycanın Meksikadakı fövqəladə və səlahiyyətli səfiri İlqar Muxtarov çıxış edərək mədəniyyət günlərinin proqramından söz açdılar.



**Meksikada yaşayan Babayevlər ailəsi**

Meksikalı sənətsevərlər gənc azərbaycanlı cazmenləri İsfar Rzayev-Sarabski, Emil Məmmədov, Ruslan Hüseynov, Tofiq Cabbarov və Aleksandr Zingeri alqışlarla qarşıladılar. Rəqs ustalarımızın coşqun musiqi sədaları altında milli geyimlərimizi təqdim etməsi də tamaşaçılarda məişətimiz haqqında dərin təəssürat yaratdı. Tarzən Mircavad Cəfərovun, kaman çalan İsmayıl Həmidovun, qarmon ustası Kamil Vəzirovun ifaları da tamaşaçıların alqışına səbəb oldu. Rəssam-modelyer Səadət Şərifovanın böyük zövq və diqqətlə hazırladığı 27 qadın paltarı əlvanlığı, parlaqlığı, gözəlliyi ilə seçilirdi.

Tədbirdə bir sıra ölkələrin Meksikada yerləşən səfirliklərinin rəhbərləri, Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı fövqəladə və səlahiyyətli səfiri Yaşar Əliyev, eləcə də Meksikada yaşayan soydaşlarımız iştirak edirdilər.

Azərbaycan Mədəniyyəti Günləri təkcə paytaxt şəhərlə məhdudlaşmadı. Meksikanın Toluka şəhərində yerləşən məşhur Avtonom Universitetində Azərbaycanın mahnı və rəqs kollektivlərinin konserti uğurla keçdi. Konsertdən öncə universitet tərəfindən hazırlanmış məruzə dinlənildi.

Məruzədə Azərbaycan haqqında, onun tarixi, mədəniyyəti və bugünü ilə bağlı tamaşaçılara məlumat verildi. Azərbaycanın tanınmış musiqiçisi Əzizə Mustafazadənin adı xüsusilə çəkildi. Tamaşaçılar arasında Toluka şəhərinin meri Mariya Elena Barreta Tapiya və universitetin rektoru, Meksikanın ictimai-siyasi xadimi Eduardo Qaska Plieqo da bizim ifaçıları alqışlayırdılar.

Mədəniyyət günləri çərçivəsində Mexikonun mərkəzi kinoteatrlarından sayılan "Cinepolis Diana"da



**Təranə Muradova dayısı ilə**



**Cəmaləddin Dadaşov**

Azərbaycan kinematoqrafçılarının çəkdiyi filmlər nümayiş etdirildi. Tamaşaçılar kinorejissorlardan Ramiz Fətəliyevin və Mehriban Ələkbərzadənin quruluş verdiyi filmlərə xüsusi maraq göstərirdilər.

Latın Amerikasının bu bölgəsində keçirilən mədəniyyət günləri çərçivəsində mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Meksikanın Gerrero ştatındakı həmkarı Rodriges Eskalano ilə görüş keçirərək Azərbaycanla Meksika arasında turizm əlaqələrinin genişləndirilməsinə dair fikir mübadiləsi də apardılar.

Meksikada mədəniyyət günləri keçirilən zaman mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bu bölgənin yeganə ingilisdilli qəzeti olan "The News" qəzetinə müsahibə verdi. Deyək ki, bu qəzet ölkəmiz barədə dörd səhifəlik xüsusi buraxılış nəşr etmişdi. Burada Azərbaycan haqqında ümumi göstəricilər, habelə xalqımızın tarixi, ədəbiyyatı, musiqisi, folklor mədəniyyəti, milli mətbəximizə dair ətraflı məlumat verilmişdir. Azərbaycan Respublikasının Meksikadakı səfiri İlqar Muxtarovun qəzetə verdiyi müsahibədə isə Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti, təcavüz nəticəsində 1 milyon azərbaycanlının qaçqın və məc-

buri köçkün vəziyyətində yaşadığı qeyd edilmişdir. Nəticə olaraq bildirilirdi ki, Meksika ilə Azərbaycan arasında siyasi əlaqələr gündən-günə inkişaf edir, Meksika beynəlxalq toplantılar zamanı Azərbaycanın haqlı mövqeyini daim dəstəkləyir.

Azərbaycan Mədəniyyəti Günləri, sözün əsl mənasında, böyük təntənə ilə keçdi, alqışlarla qarşılandı. Qətiyyətlə demək mümkündür ki, Azərbaycan musiqisi Latın Amerikasını fəth etdi. Amma bu möhtəşəm və təntənəli günlərin də öz zirvələri var idi.

Camaləddin Dadaşov, xalq artisti Təranə Muradova və caz ifaçısı İsfar Rzayev-Sarabski. Bu sənətkarların ifaları həqiqətən mədəniyyət günlərinə bir gözəllik, şirinlik və cazibə qatdı. Onları ayaqüstə alqışlayan tamaşaçıların şən ovqatı hər birimizə fəxrli duyğular bəxş edirdi.

Meksikada keçirilən mədəniyyət günlərində bizi riqqətə gətirən məqamlardan biri də vaxtilə hansı rüzgarınsa bu bölgəyə atdığı soydaşlarımızla görüşümüz oldu. Xalq artisti Təranə Muradovanın dayısı Tacəddin Vəliayi ilə ilk dəfə Mexikoda görüşməsi kövrək an idi. Əslən Cənubi Azərbaycandan olan Tacəddin bəy uzun illər Fransada, 20 ilə yaxındır ki, Meksikada yaşayır. Qələm əhlidir, 30-a yaxın kitabı var. Son kitablarından birini isə ölkəmizin birinci xanımı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın gördüyü xeyirxah işlərə həsr edib. Eləcə də skripkaçı Spartak Babayev 20 ilə yaxındır ki, Meksikada yaşayır. Mexiko ştatının simfonik orkestrində çalışır. Qızı Nanə Babayeva da bu orkestrdə konsertmeyster köməkçisidir.

Mədəniyyət günlərinin xoş büsatından onların da sevincinə pay düşmüşdü. Sanki bu uğurdan fərəhlənərək meksikalı həmkarlarına bildirmək istəyirdilər ki, görürsünüzmü bizim necə zəngin mədəniyyətimiz, musiqimiz, tariximiz və istedadlı insanlarımız var.

**Hər iki ölkədə on gündən artıq çəkən Azərbaycan Mədəniyyəti Günlərinin xoş təntənəsi, yəqin ki, uzun müddət əcnəbi tamaşaçıların yaddaşından silinməyəcək. Bu gün Azərbaycan mədəniyyəti böyük inamla qanadlarını bütün dünyaya açaraq varlığını bir daha əzmlə, mətanətlə, istedadla nümayiş etdirir. Bu gün Azərbaycan mədəniyyətinin sorağı dünyanın möhtəşəm konsert salonlarından, teatr ocaqlarından, məşhur mədəniyyət mərkəzlərindən gəlir.**

**Azərbaycan mədəniyyəti ölkələri fəth etməkdədir.**

**● Flora XƏLİLZADƏ,**
***Paris-Havana-Mexiko-Bakı***



**Dibçəkdə görməyə adət etdiyimiz kaktuslar Meksikada insan boyundan iki dəfə uca olur...**